**BƏŞİROVA SƏADƏT MÜBARIZ QIZI**
***Azərbaycan Dillər Universiteti Azərbaycan ədəbiyyatı kafedrası***
***Rəşid Behbudov 134***
***Bashirovaseadet@gmail.com***

# ELDAR BAXIŞ YARADICILIĞINDA MÜHARİBƏ PROBLEMİNİN BƏDİİ TƏCƏSSÜMÜ

***Açar sözlər: ədəbiyyat, müharibə, bədii həqiqət***
***Key words: literature, war, artistic truth***
***Ключевные слова: литература, война, художественная правда***

Milli varlığın ifadəsi olan ədəbiyyatda tarixi dövrün reallıqlarına uyğun şəkildə inkişaf edən müharibə mövzusu hər zaman aktual və hərəkətverici qüvvə olmuşdur. Müharibə mövzusuna müraciət edən yazarlar bütün hallarda bədii həqiqətə əsaslanmışdır. "Ədəbiyyatda müharibə həqiqətlərinin inkişafı ilkin olaraq həm də onunla səciyyəvi olmuşdur ki, sənədli materiallar, gerçək əhvalatlar əsasında yazılmış əsərlər bədii ümumiləşdirmələri üstələmişdir [1, səh.191].

Prof. Kamran Əliyev "Müharibə mövzusu və ailə obrazı" məqaləsində ədəbiyyatda müharibə probleminə belə yanaşmışdır: "Müharibə mövzusu bütün dövrlərdə ədəbiyyatın ən ağrılı mövzularından biri olmuşdur. Bəşəriyyətə fəlakətlər gətirən qanlı müharibələr həmişə mütərəqqi yazıçılar tərəfindən qətiyyətlə pislənilib və onların bir daha təkrar olunmamasına səy göstərilmişdir" [7, səh.14]. Müharibə mövzusu ədəbiyyatın istər lirik, istər epik, istərsə də dramatik növündə mütləq şəkildə təsvir edilmişdir. Müharibə davam edən bir zamanda onun probleminin bədii təcəssümü, hadisələrə birbaşa reaksiyası isə ilk növbədə özünü publisistikada və poeziyada daha aktual şəkildə göstərmişdir.

Məqalədə 1960-1990-cı illərin görkəmli ziyalısı, müharibə və antihumanist məsələlərə münasibəti ilə yaradıcılığında cəsarətli mövqedən çıxış edən şair Eldar Baxışın müharibə probleminin mövzu palitrası haqda araşdırmalar aparılmışdır. Araşdırma obyektinin tələbi üzrə Eldar Baxışın ömür bioqrafiyasında 1970-1990-ci illər Azərbaycan poeziyasının xüsusiyyətlərinə nəzər salaq:

1. 1970-1980-ci illər poeziyasında Vətən mövzulu şeirlərdə qəhrəmanın fərdi vətən anlayışı ön plana keçdi. Eldar Baxış fərqli xarakter, fərdi və fərqli yanaşımını 1977-ci ildə ilk dəfə çap etdirdiyi "İydə çiçəyi" kitabında göstərmişdir. Kitabda yer alan müharibə mövzulu poetik nümunələrdə Böyük Vətən müharibəsi illərinin dəhşətlərini yaşanan insanların təkliyi ("Həsrət"), kədər ("Əmioğlum Dəryaqulu haqqında nəğmə"), həyat və ölümün müqayisəsi ("İki həzin nəğmə"),

qəhrəmanın müharibə sonrakı iztirabları ("Bir cüt qol haqqında nəğmə", "Dava") əks olunmuşdur.

Şairin "Həsrət" şeirində insan təkliyi ürək ağrısı ilə qələmə alınıb:

Nə oldu, ayrıldıq bir-birimizdən,
Dədə bir tərəfdə, dağ bir tərəfdə.
Ayrılıq ələdi saçlarıma dən,
Qara bir tərəfdə, ağ bir tərəfdə. (Baxış Eldar. İydə çiçəyi. Bakı, Gənclik 1977, 25 səh., səh.23)

"Əmioğlum Dəryaqulu haqqında nəğmə" şeirində Niyazla bir elin uşağı olan Dəryaqulunun bir gün ulduz kimi axıb davaya getməkləri, dava bitəndə isə yalnız birinin qayıtması dərin hüzn və kədərlə təsvir olunub:

Dava qurtaranda Niyaz qayıtdı,
Qayıtdı cəbhədən bir ulduzumuz [4, səh.17].

Ondan nə üçün tək qayıtdığını xəbər alanda isə Niyaz cibindən bir cüt kağız çıxardaraq daha acı fəryada səbəb olur:

Əl boyda bir kağız çıxartdı Niyaz.
Döndük bir ananın fəryadına biz,
Gördük ki, Hitleri lənətləyirlər,
Çırpır dizlərinə nənəm Firəngiz.
-Oğul istəyirik, kağız verirlər [4, səh.17]

Sovet İttifaqı qəhrəmanı Aleksandr Matrosova həsr etdiyi "İki həzin nəğmə" adlı poetik nümunəsində müxtəlif zamanlar qovuşuq formadadır. Gənc şair "Birinci güllə" və "Qayıtdın" adlı iki hissəyə böldüyü bu şeirin "Birinci güllə" adlanan birinci hissəsində 19 illik ömrünün son nöqtəsi olan faşist pulemyotu və Saşanın ölüm səhnəsini canlandırmışdır:

Saşa
Nə deyim
Faşist pulemyotuna?!
Açıldı
On doqquz illik həyatına...
Birinci güllə
Oldu ömrünün nöqtəsi...[4, səh.5]

"Qayıtdın" adlanan ikinci hissədə isə qəhrəmanın uşaqlıq xatirələri ilə düşmən tərəfindən atılan güllə nəticəsində həyatın və ölümün müqayisə mənzərəsi verilib:

Bir vaxt həyətinizdəki
alma ağacından yıxılan kimi,
yıxıldın ömrünün on doqquzuncu ilindən,
Onda alma yığa bilmədin Saşa,
İndi həyat çıxdı əlindən.
Düşdün qəhrəmanların sırasına.

Heykələ dönüb, qayıtdın yaşıdlarının sırasına [4, səh 6].

Müharibə haqqında yazılan bədii nümunələrdə döyüşdən gələn əsgərin, əsirlikdən dönmüş insanın dinc həyat dönəmində də hələ davam edən iztirabı, daxili "döyüş"ü bitmir. "Bir cüt qol haqqında nəğmə" adlı nümunə Şirin əminin 1945-ci il müharibəsində yaşadığı faciəsi haqqındadır. Hadisələrin konkret tarixi zaman kəsiyində baş verdiyi kiçik poetik nümunədə müəllif Şirin əminin daxili əzabını, nəvəsinin, Mələk xanımın istəklərini yerinə yetirə bilməyəndə çəkdiyi iztirabını, çarəsizliyini və beləcə ömrünün sonuna kimi bu ağrı ilə yaşayacağını ürəkağrısı ilə qələmə almışdır:

Nəvəsi deyəndə ki,
Məni qucaqla, baba.
Pencəyinin boş qolları, yellənər havada.
Onun bir cüt qolu
1945-ci ilin o tayında qalıb.
Yaxşı xatırlamır
Reyxstaqın yanında, yoxsa Reyn çayında [4, səh.13].

"Dava" şeirində 1945- ci ildə müharibənin artıq bitməsinə baxmayaraq izlərinin insanlarda qaldığını göstərən şair bu izlərin həyatın bütün nöqtələrində var olduğunu poetik incəliklə oxucuya çatdırmışdır. Müəllif bu nümunədə hadisələri tarix üzərinə köçürərkən atalarımızı nümunə götürmüşdür:

Dava qurtarsa da
1945-ci ildə,
Dava görmüşəm
Atamın alnındakı şırımda [4, səh.14].

Müharibədə bir ayağını itirən qəhrəmanın acı-ağrısı şeirin son bəndində aşağıdakı kimi təsvir olunub. Qəhrəmanın duyğuları bütün çılpaqlığı ilə bədii mətnə köçürülür:

İsmayıl dayı həmişə
Mağazadan
Bir cüt ayaqqabı alar,
Birini geyər ayağına,
Biri taxçada qalar [4, səh.15].

"Davanın axırıncı günü" şeirində baş qəhrəman Bəbəş dayının insanları başına toplayıb danışdığı dava anlarından iftixarla danışdığının şahidi oluruq:

Bəbəş dayı danışırdı:
-Yağının
Torpağını torba ilə daşıdıq.
Düşmənlərdən əlimizə kim düşdü
Toxumunu yer üzündən qaşıdıq.
Moskvadan getdik-çıxdıq Berlinə,
Hitlerin də alığını aşıdıq [4, səh.54].

Şeirin maraqlı bir hissəsi var. Müəllif burada düşmənə müdhiş bir sual ünvanlayaraq, uşaqların müharibədən çəkdikləri mənəvi əzablardan, təhsil ala bilməməklərindən, uşaqlıqlarının qorxu və itki içində keçməyindən bəhs etmişdir:

Dedi:
- Yaxşı,
Biz düşmənik, yağıyıq,
Baxmamışıq əyrisinə, düzünə,
Gündoğandan əlimizi uzadıb,
Günbatanda ağ salmışıq gözünə,
Bu uşaqlar, bu tifillər neyləyib,
Bilirsənmi nə çəkiblər üzündən?
Müəllim yox, karandaş yox, qələm yox,
Yapışıblar quzuların gözündən [4, səh.52]

Yaradıcılığının birinci mərhələsində Böyük Vətən müharibəsinə həsr etdiyi poetik mətnlərində Eldar Baxış müharibənin ağrı-acısını, təbiətə, insanlığa olan dağıdıcı təsirini urək ağrısını ilə qələmə almışdır. Ədəbi qəhrəmana birbaşa müraciət, qəhrəmanın əsgərlik həyatının real bədii detallarla canlandırılması, onun bitən və “bitməyən” döyüşü, müharibənin yaratdığı aclıq və səfalətin izlərinin bədii əksi oxucuya mükəmməl şəkildə çatdırılmışdır. İnsan faciəsi ən epataj səciyyəli elementlərinə qədər poetik təsvirin predmetinə çevrilmişdir.

1970-1990-cı illər Azərbaycan poeziyasında baş verən əsaslı dəyişikliklər şair Eldar Baxışın yaradıcılığından yan keçə bilməzdi və bunun nəticəsidir ki, poeziyanın 1980-1990-cı illər mərhələsinə nəzər saldıqda şairin bədii yaradıcılığında müharibə problemini, müharibə mövzusunu və müharibə anlayışını fərqli formada görürük..

2. 1980-1990-cı illər poeziyasında tarix bioqrafiyası – Qanlı Yanvar hadisələri, Qarabağ problemi – poeziyada minor motivlər üstə köklənərək poeziya yaddaşına köçürüldü.

Müasir Azərbaycan poeziyasının inkişaf mərhələsini araşdırarkən alim və ziyalılarımızın fikirləri maraq doğurur: “Müasir dövrdə, xüsusən 1980-ci illərin axırlarından yaranmış ictimai-siyasi şəraitdə milli ədəbi-ictimai mühit respublikamızda gedən hadisələrlə əlaqədar olaraq bir növ əvvəlki məqsədli yolunu dəyişdi. Milli ictimai təfəkkürün oyanış məqamalarında bir başqa, sırf milli xarakterli ədəbiyyatın təməli göründü [6, səh.9].

1990-cı illər müharibə şəraitində olan ölkənin ədəbiyyatı üçün müharibə mövzusunun prioritet olması da qanunauğundur. Bu mərhələdə yazılan şeirlərdə çağırış ruhu, qisas motivi güclü idi, sərt dramatizm ön plana keçmişdir. Müəllifin qələbə arzusunun ifadəsi, xalqın qələbəyə olan inamını özünə qaytarılmasında bu düşüncə əvəzsiz idi.

“Müharibə gerçəklikləri, Azərbaycan reallığında erməni faktoru, qaçqınlıq-didərginlik həqiqətləri, müharibə və münaqişənin gənc nəslin düşüncəsinə, həyatına

təsirləri mövzuya fərqli rakursdan yanaşmanın nəticəsi olaraq meydana çıxırdı” [2, səh.154].

Müharibə şəraitində yaşayan xalqın bütün ağrı-acılarını, mənəvi sarsıntılarını, psixoloji durumunu və bədii həqiqətləri göz önündə canlandıran Eldar Baxışın mübariz ruhu ədəbiyyatımızda ayrıca vurğu ilə seçilir. 1980-ci illərdə Zori Balayan kimi ermənipərəstin “Ocaq” kitabında Qarabağ məsələsinə qarışması və ortalığı qızışdırmasına şair Eldar Baxış satirik publisistikanın az öyrənilən janrı pamflet üslubuna üstünlük verərək “Zori Balayana məktub” şeirinə kəskin cavab yazmış və bu şeir 10 il ara ilə bir çox ədəbiyyat səhifələrində, qəzət və jurnallarda:

- “Ocaq” kitabının müəllifi Zori Balayana məktub (şeir) “İcmal” qəzeti (xüsusi buraxılış), 1996, N 20, səh.4
- “Ocaq” kitabının müəllifi Zori Balayana məktub. “Ədalət” qəzeti, 2014, 2 avqust, səh.15
- “Ocaq” kitabının müəllifi Zori Balayana məktub. “Ulduz” jurnalı, 2021, N 1, səh.56-57

uzun müddət marağa və alqısa səbəb olmuşdur:

O nədir yazmısan Zori Balayan?
Kür-Araz deyirsən-kəkələyirsn.
Xırda budaqların üstə oturub,
Böyük budaqları silkələyirsən [5, səh.56].

Şeirin birinci bəndində Zori Balayana ünvanlanan bu sərt çıxış şairin vətəndaşlıq ruhundan, azadlıq çağırışından xəbər verir. Qorxaq kimi hiyləgərlik edərək, böyük işlər görə biləcəyini hesab edən erməni jurnalistin cavabını poetik nümunənin hər bəndində özünəməxsus şəkildə verən müəllif bütün qəzəbini, etirazını məğrurluqla ifadə etmişdir:

O nədir yazmısan Zori Balayan,
“Bala” da bizimdi, “zor” da bizimdi.
Ölmək istəyirsən gəl Qarabağa,
Kəfən də bizimdi, gor da bizimdi [5, səh.57].

Erməni millətinin heç vaxt gözünün doymadığını, cılız və dar düşüncənin məhsulu olduqlarını poetik cizgilərlə sübut edən şairin məramı göz önündədir:

Bax, bir ürəyimin genişliyinə,
De kimə lazımdır bu haray-həşir?
Sənin ürəyinə bir ovuc torpaq,
Mənim ürəyimə dünya yerləşir [5, səh 57].

Şair burada eyni zamanda milli mənsubiyyət probleminə də toxunur. Milli mənsubluqları mübahisə yaradan ermənilərə iddialı sözlər ünvanlayan müəllif bunu faktlar əsasında qeyd edir.

İrəvan dilində xoruzlanırsan,
Moskva dilində zarıyan oğlan [5, səh. 57].

O vaxtlar televiziyanın "Ədəbi dram" verilişlərinin baş redaksiyasında böyük redaktor vəzifəsində çalışan şair 1988-1990-cı illərdə Qarabağ problemlərindən bəhs edən verilişlər də hazırlayaraq vətəndaşlıq mövqeyini ortaya qoymuşdur.

Eldar Baxış "Yaşılım, yaşılım, hara gedirsən? şeirində vətənin başı üstündə Rus imperiyasının qırmızı bayrağının dalğalanması düşüncəsi ilə barışmayaraq, İslamın rəmzi olan yaşıl bayrağını müxtəlif çalarlarda təsvir edərək geri səsləyir. Bədii sual üzərindən yazılan şeirdə şairin ruhundakı azadlıq və sərbəstlik özünü əsaslı şəkildə göstərir. Şeirdə iki bayraqla rastlaşırıq:

Ağac yaşılım, hara gedirsən?
Hara gedirsən yarpaq yaşılım?
Ot yaşılım, hara gedirsən?
Hara gedirsən, kəpənək yaşılım?
Getmə, qayıt geri başına dönüm [4, səh.20].

"Müharibə və ədəbiyyat" monoqrafiyasının müəllifi Elçin Mehrəliyev Qanlı 20 Yanvar hadisəsinə, Qarabağ müharibəsinə münasibət bildirən şairləri belə səciyyələndirmişdir: "Milli matəm və ondan sonrakı günlərdə Cabir Novruz, Xəlil Rza Ulutürk, Hüseyn Arif, Fikrət Qoca, Zəlimxan Yaqub, Eldar Baxış məşum şənbə gecəsinin hadisə və dəhşətlərini vətəndaşlıq yanğısı ilə qələmə aldılar, şəhidlərin lirik obrazı vasitəsilə bütün bir xalqın, bir torpağın fəryadını kəks etdirdilər. Onlar, eyni zamanda, dərd nə qədər ağır olsa da, xalqa təsəlli verməyə, bağrı qanlı insanları söz məlhəmi ilə ovutmağa çalışırdılar [8, səh.44]. Qarabağ hadisələrinə müraciətdə mövzu bir olsa da, adlarını sadaladığımız hər bir şairin poetik dünyasında bu problem fərdi üslubda və fərqli rakursda canlandırılıb.

Bitməyən torpaq dərdi, torpaq nisgili, onun hər qarışına olan sevgisindən bəhs edən "Bu torpaq" şeirində şair ürək yanğısı ilə düşmənin torpaqlarımızı işğal etməsinin günahını özümüzdə görür. Hamıya sığınacaq açaraq, qucaq açaraq üzüyumşaqlılığımızdan istifadənin sonunun belə acınacaqlı olması şairin ürəyinin iztirabıdır:

Bu torpaq ki var ayağımızın altında,
Bu torpaq iti də, pişiyi də mindirib boynuna.
Allahın iti də, pişiyə də iki ayaq üstə yox,
Dörd ayağını dirəyib bir başmağa,
Başlayıb bu torpağın üstündə yeriməyə, gəzməyə,
əməlli-başlı yaşamağa [3, səh.15].

Müharibə illərinin ağrıları ilə bağlı şair "Böyük qorxu", "Qələm", "Nəsə çatmır, çatmır bu yer üzündə", "Kəlbəcər şeirləri", "Yolun iki üzü" şeirlərini, "Çaldıran döyüşü", "Kənd", "Balıq ölümü" adlı poemalarını yazmışdır. Bu əsərlərində azadlıq eşqi millət azadlığı ilə qovuşmuşdur.

### Ədəbiyyat siyahısı:

1. AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı. 2 clilddə, I cild, Bakı, "Elm və təhsil", 2016, 800 səh.
2. AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı. 2 cilddə, II cild. Bakı, "Elm və təhsil", 2016, 1088 səh.
3. Baxış E. "Bu torpaq". "Ədalət" qəzeti, 2014, 2 avqust, səh.15
4. Baxış E. İydə çiçəyi. Bakı, Gənclik 1977, 25 səh., səh.23
5. Baxış E."Ocaq" kitabının müəllifi Zori Balayana məktub. "Ulduz" jurnalı, 2021, N 1, səh.56-57
6. Binnətova A.. "Poeziyada milli azadlıq duyğuları". Bakı, "Ağrıdağ", 1987
7. Əliyev K. "Müharibə və ailə mövzusu". Kaspi, 2017, 9 sentyabr, səh.14
8. Mehrəliyev E. "Müharibə və ədəbiyyat" (Qarabağ uğrunda mübarizə və 90-cı illərin Azərbaycan ədəbiyyatı). Bakı, Azərnəşr, 2000, 228 səh.

***Bəşirova Səadət Mübariz qızı***

**Eldar Baxış yaradıcılığında müharibə probleminin bədii təcəssümü**

**Xülasə**

Cəmiyyətdə baş verən əsaslı dəyişikliklər poeziyadan yan keçmədi. Şüur və milli özünüdərk yeni mərhələyə qədəm qoydu. Əminliklə qeyd edə bilərik ki, Azərbaycan poeziyası 1960-cı ildə modernizmə keçid dövrü edərək, 1990-cı illərdə baş verən hadisələr daha cəld reaksiya verəndən bir dönəmdən keçmişdir. Bunu həmin illərdə yazılmış şeirlərin ideya-məzmun istiqamətində, bir qədər sonra isə poetik xüsusiyyətlərində aydın müşahidə etmək olar. Zaman və fakt 1970-1990-cı illər müharibə mövzulu poeziyanın ön planda olan əsas göstəriciləridir.

Eldar Baxışın həm bəşəri mövzuda, həm də milli düşüncədə qələmə aldığı poetik nümunələrində müharibəyə olan nifrət və qəzəb yaratdığı qəhrəmanın dilindən oxucusuna çatdırılmışdır.

Ədəbi fəaliyyət dövrü hər iki mərhələdən keçən şair müharibə problemini ümumbəşəri mövzu olaraq işləmişdir. Bütün bunlar Eldar Baxışın bədii təfəkürünün sistemli səciyyə daşımasının göstəricisidir.

***Баширова Саадат Мубариз кызы***

**Художественное воплощение проблемы войны в творчестве Эльдара Бахиша**

**Резюме**

Коренные перемены, произошедшие в обществе, не обошли стороной поэзию. Сознание и национальное самосознание вышли на новый этап. Можно с уверенностью сказать, что азербайджанская поэзия прошла период с момента

перехода к модернизму в 1960-х годах и более быстрой реакции на события 1990-х годов. Это отчетливо прослеживается в идейно-содержательном направлении стихотворений, написанных в эти годы, а несколько позднее и в поэтических особенностях. Время и факт — главные индикаторы военной поэзии 1970-1990-х годов.

В поэтических примерах, написанных Эльдаром Бахишем как на человеческую тему, так и на национальную мысль, ненависть и злоба к войне передавались читателю со слов героя.

Поэт, прошедший оба этапа своей литературной деятельности, работал над проблемой войны как общечеловеческой темой. Все это является показателем системности художественного мышления Эльдара Бахиша.

**Bashirova Saadat Mubariz**

## Literary reflection of the problem of war in the Eldar Bakhish's creative works

### Abstract

The fundamental changes that took place in society are not escaped poetry. Consciousness and national self-awareness entered a new stage. We can say with certainty that Azerbaijani poetry has passed a period since it made a transition period to modernism in 1960 and reacted more quickly to the events that occurred in the 1990s. This can be clearly observed in the idea-content direction of the poems which are written in those years, and a little later in the poetic features. Time and fact are the main indicators of war-themed poetry in the 1970s-1990s.

In the poetic examples are written by Eldar Bakhish both on the human subject and on the national thought, the hatred and anger towards the war is conveyed to the reader from the words of the hero.

The poet, who went through both stages of his literary activity, worked on the problem of war as a universal theme. All this is an indicator of the systematic character of Eldar Bakhsh's literary  thinking.

**Redaksiyaya daxil olma tarixi: 08.10.2023**
**Çapa qəbul olunma tarixi: 23.10.2023**
**Rəyçi: f.ü.f.d., Vəfa Fətullayeva**
**tərəfindən  çapa tövsiyə olunmuşdur**